

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ *qapısı*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 188 (23.830)

*12 oktyabr 2021-ci il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


*Rəsmi xronika*

Xəbər verildiyi kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 9-da Xocavənd rayonunun Hadrut qəsəbəsinə və Tuğ kəndinə səfər edib. Dövlətimizin başçısı Hadrut qəsəbəsində yeni məscidin təməlini qoyub. Məlumat verilib ki, Hadrut qəsəbəsində yerli əhali üçün inşa ediləcək məscid eyni vaxtda 250 nəfərin ibadəti üçün nəzərdə tutulur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 9-da Hadrut-Cəbrayıl-Şükürbəyli, Tuğ-Hadrut və Füzuli-Hadrut yollarında aparılan tikinti işlərinin gedişi ilə tanış olub, yeni "Hadrut" qovşaq yarımstansiyasının təməlini qoyub.

Prezident İlham Əliyev oktyabrın 9-da Xocavənd rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb, dövlətimizin başçısı görüşdə çıxış edib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 9-da Xocavənd rayon ictimaiyyətinin nümayəndələri ilə birlikdə Tuğ kəndində olub. Dövlətimizin başçısı Tuğ kəndini gəzib və ictimaiyyət nümayəndələri ilə söhbət edib.

* * *

Oktyabrın 11-də Serbiyanın paytaxtı Belqradda Qoşulmama Hərəkatının 60 illiyinə həsr edilmiş Yüksək Səviyyəli Toplantı öz işinə başlayıb. Azərbaycan Respublikasının Prezidenti, Qoşulmama Hərəkatının sədri İlham Əliyev tədbirin rəsmi açılış hissəsinə sədrlik edib. Dövlətimizin başçısı tədbirdə videoformatda çıxış edib.



## "Sarsılmaz qardaşlıq – 2021"
## birgə əməliyyat-taktiki təliminin döyüş atışlı mərhələsi keçirilib

***"Naxçıvan Qarnizonu qoşunlarının 2021-ci tədris ilinə uzlaşma planı"na və Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında imzalanmış hərbi əməkdaşlıq haqqında sazişə əsasən Naxçıvanda hər iki ölkənin motoatıcı, xüsusi təyinatlı, komando və müxtəlif qoşun növlərinin iştirakı ilə "Sarsılmaz qardaşlıq – 2021" birgə əməliyyat-taktiki təliminin döyüş atışlı mərhələsi keçirilib.***



Təlimin döyüş atışlı mərhələsindən əvvəl Əlahiddə Ümumqoşun Ordu komandanı, general-polkovnik Kərəm Mustafayev, Türkiyə Respublikasının 3-cü Ordu komandanı, general-polkovnik Yavuz Türkgənci və müxtəlif qoşun növü komandirləri silahlanmaya yeni qəbul edilən hərbi-texniki vasitələrə baxıblar, səhra şəraitində müasir cihaz və avadanlıqla təmin edilmiş döyüşü idarəetmə məntəqəsi ilə tanış olublar.

Təlimin planı ilə tanışlıq zamanı bildirilib ki, "Sarsılmaz qardaşlıq – 2021" Azərbaycan-Türkiyə birgə əməliyyat-taktiki təliminə Əlahiddə Ümumqoşun Ordunun, "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının, Daxili Qoşunların "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadasının, Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin, Dövlət Təhlükəsizliyi Xidmətinin və Türkiyə Silahlı Qüvvələrinin bölmələri cəlb edilib. Azərbaycan və Türkiyə Silahlı Qüvvələrinin şəxsi heyəti arasında təcrübə mübadiləsinin genişləndirilməsi, yaradılmış birgə qərargahlarda əməliyyatların planlaşdırılması, bölmələrin vahid mərkəzdən idarə olunması, bölmələrlə qərargahlar arasında qarşılıqlı əlaqənin və qoşunların hərtərəfli təminatının təşkili üzrə suallar işlənilib.

Planla tanışlıqdan sonra təlimə start verilib.

Təlimin ssenarisinə əsasən xüsusi təyinatlı həmlə qrupları düşmən müdafiəsinin ön xəttindəki hakim yüksəklikləri ələ keçirir.

Hücumun dərinliyə inkişaf etdirilməsi və düşmən ehtiyatlarının fəaliyyətinin məhdudlaşdırılması məqsədilə paraşütlə hava desantı atılır. Mövqelərini gücləndirmək üçün hərəkətdə olan şərti düşmənin ehtiyat bölməsi həmlə qrupumuz tərəfindən pusquya salınır və düşmənə məxsus zirehli transportyorlar bölmələrimiz tərəfindən qənimət kimi götürülərək əməliyyat rayonundan çıxarılır.

Hücum edən qoşunlarla birgə "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının bölmələri dövlət sərhədində düşmənin diversiya-kəşfiyyat qruplarının dağıtdığı əraziləri bağlayır, azad olunmuş ərazilərdə dövlət sərhədinin müdafiə və mühafizəsini təmin edir.

Naxçıvan Qarnizonu Qoşunlarının və Türkiyə Silahlı Qüvvələrinin komando birliklərinin tərkibində fəaliyyət göstərən snayper qrupları düşmən müdafiəsinin ön xəttində və yaxın dərinliyində tək hədəfləri aşkarlayaraq məhv edir.

Hakim yüksəklikdə yerləşən düşmənin dairəvi müdafiə qovşaqlarının ələ keçirilməsi üçün xüsusi həmlə qrupları düşməni məhv edir, qənimət kimi ələ keçirilmiş tank əleyhinə dəzgahlı qumbaraatanların və hava hücumundan müdafiə vasitələrinin atəşləri ilə digər mövqedə yerləşən düşmən bölmələrini zərərsizləşdirir və ən aşağı hündürlükdə uçan düşmən aviasiyasının hücumlarını dəf edir.





Hücum edən qoşunların irəliləməsini təmin etmək üçün Əlahiddə Ümumqoşun Ordunun raket və artilleriya bölmələri tərəfindən düşmənin müdafiə dərinliyindəki ehtiyatlarına, dağ silsiləsində yerləşən taqım və bölük dayaq məntəqələrinə zərbələr endirilir.

Tank və piyadanın döyüş maşınlarından ibarət taktiki qruplar raket və artilleriya bölmələrinin atəş basqınından yararlanaraq dağlıq şəraitdə düşmənin ön xəttindəki atəş vasitələrini məhv edir, hücum edən bölmələrimiz irəlilədikcə yeni atəş mövqelərinə yerdəyişməni həyata keçirir.

Naxçıvan Qarnizonu Qoşunlarının xüsusi hazırlıqlı heyətlərindən və Türkiyə Silahlı Qüvvələrinin komando birliklərinin tərkibindən ibarət hücum qrupu zirehli transportyorların atəş dəstəyi ilə yaşayış məntəqəsinin düşməndən təmizlənməsi fəaliyyətlərini yerinə yetirir.

Yaşayış məntəqəsində döyüşlər zamanı yaralılara ilk tibbi yardım göstərilərək helikopter vasitəsilə təxliyə edilir və eyni zamanda Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin struktur qurumlarının xilasedici alpinistlərindən ibarət təxliyə qrupları dağlıq ərazidən yaralıların təxliyəsini həyata keçirir. Yaralıların təxliyəsini həyata keçirən helikopterin mühafizəsini təşkil edən digər iki helikopter düşmənin dağ silsilələrində yerləşən bölük dayaq məntəqələrinə atəş zərbələri endirir.

Döyüşün müsbət dinamikasından yararlanan xüsusi təyinatlı qruplar yüksək dağlıq və sərt qayalıq ərazilərdə düşmən müdafiəsinin yaxın dərinliyində yerləşən mövqeləri, dağ silsiləsi boyunca hakim yüksəklikləri ələ keçirir və taktiki qrupların hücumunun inkişaf etdirilməsinə əlverişli şərait yaradır.

Bölmələrimizin hücumunu dəstəkləmək üçün düşmənin yaxınlaşmaqda olan ehtiyatlarına və dərinlikdəki hədəflərinə döyüş təyyarələri ilə ən aşağı hündürlükdə zərbələr endirilir.

"Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının bölmələri dövlət sərhədi boyu hakim yüksəklikləri düşmən bölmələrindən azad edir, Naxçıvan Muxtar Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin və Daxili Qoşunların "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadasının xüsusi təyinatlılarından ibarət qruplar tərəfindən mağaralarda gizlənən düşmən qrupları aşkar edilərək zərərsizləşdirilir.



Azad olunmuş ərazilərdə qoşunların hərtərəfli təminatını həyata keçirmək üçün pirotexniki taqım hərəkət yollarında keçidlərin açılmasını, partlamamış sursatların axtarışını və zərərsizləşdirilməsini yerinə yetirir, yanğından mühafizə taqımı azad edilmiş yaşayış məntəqəsində yanğınların lokallaşdırılması və söndürülməsi fəaliyyətini icra edir.

Düşmənin darmadağın edilməsinin başa çatdırılması və hücum edən qoşunların dəstəklənməsi məqsədilə əraziyə taktiki hava desantı endirilir, ələ keçirilmiş dağ aşırımının ən yüksək zirvəsindən Azərbaycan və Türkiyə respublikalarının dövlət bayraqları asılır.

Sonda döyüş təyyarələri və helikopterlərin keçidi ilə Azərbaycan və Türkiyə respublikalarının dövlət bayraqları, eləcə də kanatla desantın daşınması nümayiş etdirilir.

Təlimdən sonra şəxsi heyətlə görüş olub.

Əlahiddə Ümumqoşun Ordu komandanı, general-polkovnik Kərəm Mustafayev və Türkiyə Respublikasının 3-cü Ordu komandanı, general-polkovnik Yavuz Türkgənci şəxsi heyəti salamlayıblar.

Əlahiddə Ümumqoşun Ordu komandanı, general-polkovnik Kərəm Mustafayev birgə təlimin döyüş atışlı mərhələsinin uğurla başa çatması münasibətilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun təbrikini şəxsi heyətə çatdırıb.

General-polkovnik Kərəm Mustafayev qeyd edib ki, böyük öndər Mustafa Kamal Atatürkün ***"Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir"*** və ümummilli liderimiz Heydər Əliyevin ***"Azərbaycan-Türkiyə bir millət, iki dövlətdir"*** fikirlərinə əsaslanan ikitərəfli münasibətlərimiz bu gün ölkə prezidentləri tərəfindən uğurla davam etdirilir, strateji tərəfdaşlığımız daha da möhkəmlənir. 44 günlük Vətən müharibəsində Türkiyənin Azərbaycanın haqq işinə verdiyi siyasi və mənəvi dəstək hər bir vətəndaşımızı qürurlandırır. Hər iki ölkənin Silahlı Qüvvələrinin məqsədi bölgədə sülhə və əmin-amanlığa nail olmaq, bir-birinə dəstək verməkdir. 2013-cü ildən Naxçıvandan başlayaraq davam edən və bu gün izlədiyimiz birgə taktiki təlimlər hərbi sahədə genişmiqyaslı əməkdaşlığımızın bariz nümunəsidir. Bu gün keçirilən birgə təlimdə də dünyada bənzəri olmayan qardaşlıq münasibətlərinə malik olan hər iki dövlətin ordularının şəxsi heyəti yüksək peşəkarlıq, döyüş əzmi və sarsılmaz qardaşlıq nümayiş etdirdi.

Türkiyə Respublikasının 3-cü Ordu komandanı, general-polkovnik Yavuz Türkgənci 44 günlük Vətən müharibəsində qazanılan qələbə münasibətilə hərbçilərimizi təbrik edərək birgə təlimlərin Türkiyə-Azərbaycan qardaşlığının daha bir ifadəsinə çevrildiyini qeyd edib. Təlim zamanı tapşırıqların yüksək peşəkarlıqla icrası nəticəsində hədəflərin sərrast atəşlə məhv edildiyini deyən Türkiyə Respublikasının 3-cü Ordu komandanı birgə təlimin keçirilməsinə göstərilən diqqətə görə minnətdarlıq edib.

Təlimdə fərqlənən hərbi qulluqçular qiymətli hədiyyələrlə mükafatlandırılıb və şəxsi heyətlə xatirə şəkli çəkdirilib.

Sonda şəxsi heyət birlik və bərabərliyin ifadəsi olan *"Hamı bir nəfər, bir nəfər hamı üçün!"* şüarını səsləndirib.

**Nəriman NƏCƏFOV**

*Tarixi yaşadan və onu gələcəyə daşıyan mühüm mənbələrdən biri də qəzetlərdir. Gündəlik həyatımızda baş verən bütün dəyişiklikləri, o cümlədən hərbi-siyasi, sosial-iqtisadi, elm, təhsil, mədəniyyət sahələrində baş verən yenilikləri ilk olaraq qəzetlərin səhifələrindən əldə edir və məlumatlanırıq. Dövlətin və millətin tərcümeyi-halını özündə əks etdirən qəzetlərin təsir imkanları geniş olmaqla, alçatmaz sərhədləri asanlıqla aşa, insanların kütləvi xəbərləşməsi, maarifləşməsi istiqamətində mühüm xidmətləri həyata keçirə bilir.*

***“Şərq qapısı” – 100***

# “Şərq qapısı” qəzeti ötən əsrin 40-50-ci illərində

“Şərq qapısı” qəzeti də fəaliyyəti dövründə öz nömrələrində bu şərəfli missiyanı layaqətlə yerinə yetirmiş, qədim Naxçıvanın beşminillik tarixini öz səhifələrində işıqlandırmış, bu işığın izi ilə addım-addım irəliləyərək tarixdə yaşamağı və birəsrlik ömür qazanmağı bacarmışdır.

Əlifbamızın və ana dilimizin, milli-mənəvi dəyərlərimizin başına açılan oyunlar, tariximizə vurulan zərbələr, eyni zamanda düşmənlərimizə qarşı aparılan qəhrəmanlıq salnamələri alın yazısı kimi birər-birər “Şərq qapısı” qəzetinin səhifələrində özünə yer tapmış, əbədiləşmiş və tarixiləşmişdir.

Ötən əsrin 40-50-ci illəri... Dünyanın ikinci ən böyük müharibəsi sona yetdi. Faşizmin dünya xalqlarına vurduğu yaraları sağaltmaq, müharibə fəlakətlərinin nəticələrini ortadan qaldırmaq üçün müharibədən sonrakı dinc dövrlərdə xalqlar və millətlərarası əməkdaşlığın, dostluğun, birliyin yaradılmasına böyük ehtiyac duyulurdu. Belə bir vaxtda “Şərq qapısı” qəzeti öz buraxılışlarında mühüm mövzulara toxunur, ictimai-siyasi əhəmiyyətli materiallar dərc edirdi. Məhz həmin illərdə ölkəmizdə respublikalar və regionlararası dostluq, yoldaşlıq əlaqələrinin genişləndirilməsi, müxtəlif tədbirlərin, görüşlərin keçirilməsi, xüsusilə kənd təsərrüfatı, sənaye sahələrində sosializm yarışlarının, illik öhdəliklərin təşkili haqqında materiallar qəzetin səhifələrində dərc olunur, geniş xalq kütlələrinə çatdırılırdı.





İkinci Dünya müharibəsində canı, qanı ilə iştirak edərək qələbənin əldə olunmasına böyük töhfələr verən naxçıvanlılar müharibədən sonrakı dinc dövrlərdə də əmək cəbhələrində hünərlər göstərir, zəfər dolu nailiyyətlər əldə edir, sosializm yarışlarının qalibləri olurdular. Bu faktlarla bağlı qəzetin səhifələrində olduqca maraqlı məlumatlara rast gəlinir. Kənd təsərrüfatı və sənayenin yenidən dirçəldilməsi, pambıqçılıq, taxılçılıq, tütünçülük, heyvandarlıq kimi təsərrüfat sahələrinin inkişaf etdirilməsi üçün yeni fəaliyyət proqramlarının həyata keçirilməsi ilə bağlı dövlət tərəfindən verilmiş qanun, qərar və fərmanların qəzet səhifəsində dərc edilməsi xalq kütlələrinin, əhalinin gələcəyə ümid və inamının artırılmasına səbəb olurdu.

“Şərq qapısı” qəzetinin 1946-cı il 5 iyul tarixli 75-ci sayında “Naxçıvan MSSR Torpaq Nazirliyinin iki nazirliyə – Naxçıvan MSSR Torpaq Nazirliyinə və Naxçıvan MSSR Heyvandarlıq Nazirliyinə bölünməsi haqqında” Naxçıvan MSSR Ali Soveti Rəyasət Heyətinin 1946-cı il 1 iyun tarixli Fərmanı bu tədbirlərin təşkilinə böyük təkan verdi. Həmçinin SSRİ Ticarət Nazirliyinin əmri ilə 1946-cı il iyulun 2-dən etibarən xüsusi ticarət vasitəsilə satılan sənaye mallarının qiymətinin aşağı salınması ilə əlaqədar olaraq sənaye malları üçün verilən limit dəftərçələri üzrə müəyyən olunmuş güzəştlərin ləğv edilməsi, əhalinin güzəranının yaxşılaşdırılmasına, digər sahələr üzrə görüləcək tədbirlərin həyata keçirilməsinə yol açırdı.

Məlumdur ki, Türkmənçay sülh müqaviləsindən sonra İran, Türkiyə və digər xarici ölkələrdən kütləvi surətdə Azərbaycan ərazilərinə, o cümlədən Naxçıvana, Qarabağa, Zəngəzura köçürülən ermənilər uzun illərboyu azərbaycanlılarla bərabər yaşamışlar.

İkinci Dünya müharibəsindən sonrakı dinc dövrlərdə müharibənin acı nəticələrinin aradan qaldırılması istiqamətində atılan mühüm addımlardan birini də quruculuq-bərpa işləri ilə bağlı həyata keçirilən dövlət tədbirləri təşkil edirdi.

“Şərq qapısı” qəzetinin 5 iyul 1946-cı il tarixli buraxılışında “Naxçıvan-Qarabağ yarışı. Qardaşlıq əlaqəsini daha da möhkəmləndirən yarış” adlı məqalədə naxçıvanlılarla qarabağlılar arasında təşkil edilən görüşün əsas məqsədi önə çəkilir və 1945-ci ildə bağlanmış yarışa yekun vurulması, 1946-cı ilə dair sosializm yarışı müqaviləsi imzalamaqdan ibarət olduğu bildirilir. Bununla bağlı, Qarabağa göndərilən Naxçıvan nümayəndə heyətini Şuşa Rayon İcraiyyə Komitəsinin sədri Abbas Rzayev və rayon partiya komitəsinin katibi İsmixanovla birlikdə şəhərin məsul işçiləri və zəhmətkeşlər tərəfindən qarşılanmasından və Xankəndiyə yola salınmasından geniş söhbət açılır. Xankəndidə naxçıvanlı nümayəndələr 3 qrupa bölünərək Qarabağın mədəniyyəti, sənayesi və kənd təsərrüfatı ilə yanaşı, Malıbəylidə, Güçəqalada istifadəyə verilən klub binaları, kəndlərdə yaradılan səhiyyə məntəqələri və doğum evləri, Böyük Tağlar və Tuğ kəndlərində əhaliyə göstərilən tibbi yardım və digər xidmət sahələri ilə tanış edilmişlər. Səfər çərçivəsində nümayəndələrin Şuşanın qədim açarları ilə tanış olmaları, sovet hakimiyyəti illərində yaradılan ipək sənayesi müəssisələrini gəzmələri, Azərbaycan xalqının böyük şairi Molla Pənah Vaqifin Cıdır düzündəki məzarını ziyarət etmələri naxçıvanlı nümayəndələri çox təsirləndirmiş və duyğulandırmışdır.

Həmin materialda görüşlərdə naxçıvanlı nümayəndələrin Qarabağın ayrı-ayrı rayonlarında əkilən pambığın və tütünün becərilməsi texnologiyasını nəzərdən keçirmələri, qarabağlıların bu sahədəki iş təcrübələri ilə yaxından tanış olmaları onlar üçün mühüm əlamətdar hal kimi təqdim olunur. Qeyd edilir ki, axırıncı görüş Xankəndidə olub. Vilayət partiya fəalları yığıncağında çıxış edən Azərbaycan K(b)P Naxçıvan Vilayət Komitəsinin katibi Ə.Hacıyev 1945-ci il yarışlarına yekun vurulduğunu və 1946-cı ildə bağlanacaq yarışın şərtləri ətrafında geniş izahat verərək yeni beşilliyin yerinə yetirilməsində əllərindən gələni əsirgəməyəcəklərini bildirir. Yığıncağın sonunda Azərbaycan K(b)P Qarabağ Vilayət Komitəsinin birinci katibi çıxış edir və deyir: “Naxçıvanın zəhmətkeşləri düşmənə qarşı şiddətli hücum döyüşləri keçirdiyimiz 1944-cü ildən bizimlə yarışırlar. Bu sosializm yarışı həmin il və 1945-ci qələbə ilində Qızıl Ordunun və ölkənin ehtiyaclarını ödəməkdə gözəl müvəffəqiyyət əldə etməklə nəticələnirdi. İndiki müqaviləmiz isə dördüncü Stalin beşilliyinin vəzifələrinin yerinə yetirilməsinə həsr edilir. Əmin ola bilərsiniz ki, qarabağlılar da bu sahədə sizdən geri qalmayacaq. İki qardaş vilayət arasında təşkil edilən sosializm yarışının uzun illər davam etdirəcəklər”.

Yığıncaq bitdikdən sonra qarabağlılar naxçıvanlı qonaqları şadlıq və minnətdarlıq hissi ilə yola salmışlar.

Ötən əsrin 40-cı illərinin ab-havasından fərqli olaraq 50-ci illərin xarakteristikası tamamilə başqa reallıqlar üzərinə köklənir.

Tarix 50-ci illəri seçkilərə doğru istiqamətləndirirdi. Seçki kampaniyalarının təşkili, seçkili orqanlarda əhalinin fəal iştirakının təmin edilməsi, seçicilərlə görüşlərin keçirilməsi kimi mühüm məlumatlar 50-ci illərin simasının rəsmi olmasından xəbər verirdi. Bu tədbirlər bütün sahələr üzrə həm istehsalatda, həm təsərrüfatda, həm də mədəni sahələrdə özünü göstərir əhalinin əhvali-ruhiyyəsinə yüksək təsir edirdi.

“Şərq qapısı” qəzetinin 50-ci illərə aid nömrələrində həmin məsələlər gündəmə gətirilir, qəzet o dövrdə, sanki bir fəal təbliğat və təşviqat orqanı kimi çıxış edirdi.

“Şərq qapısı” qəzetinin 6 mart 1957-ci il tarixli 28-ci nömrəsində yerli sovetlərə, sonrakı dövrlərdə isə respublika və SSRİ miqyasında keçiriləcək seçkilərə hazırlıq işləri ilə bağlı xüsusi materiallar dərc olunur. “Seçkilər gününü görkəmli istehsalat qələbələri ilə qarşılayaq”, “Deputat xalqın elçisidir”, “Culfa yerli sovetlərə seçkilər qarşısında. Seçicilərin arzusu” başlıqları ilə materiallar dərc olunur. Ordubad, Şahbuz, Şərur rayonlarında da qızğın işlər gedir, xüsusilə şəhərlərin abadlaşdırılması, istehsal sahələrinin genişləndirilməsi, kənd təsərrüfatında məhsuldarlığın artırılması istiqamətində seçkilərə hazırlıq işləri ilə əlaqədar mübarizə tədbirləri həyata keçirilirdi.

“Şərq qapısı” qəzetinin 17 avqust 1957-ci il tarixli 66-cı nömrəsində 1957-ci ilin 1-ci yarısında Azərbaycan SSR xalq təsərrüfatının inkişafına Naxçıvan zəhmətkeşlərinin də böyük töhfələr verməsindən və dövlət planlarının uğurla yerinə yetirilməsi, mədəni-maarif müəssisələrinin işinə rəhbərliyin gücləndirilməsi ilə bağlı mövzular xüsusi yer tutur. Həmin qəzetdə Əbrəqunus, Cuğa, Qazançı və Milax kəndlərindəki mədəniyyət ocaqlarının, kitabxana və klubların vəziyyətinə, rayon mədəni-maarif şöbələrinin, partiya təşkilatı müəssisələrinin fəaliyyətlərinə geniş nəzər salınmışdır. Bu mövzularla əlaqədar qəzetdə “Payız əkininə hazırlıqla başlamalı”, “1957-ci ilin birinci yarısında Azərbaycan SSR xalq təsərrüfatının inkişafı”, “Mədəni-maarif müəssisələrinin işinə rəhbərliyi gücləndirməli” başlıqlı məqalələr dərc olunmuşdur.

“Şərq qapısı” qəzetinin 15 sentyabr 1957-ci il tarixli 110-cu nömrəsində sosializm yarışında fəal iştirak edən naxçıvanlıların hünərindən, zəhmətindən geniş söhbət açılır, plan tapşırıqlarının, yarış öhdəliklərinin yerinə yetirilməsi uğrunda həyata keçirilən tədbirlərdən, o cümlədən Culfa şəhərində dəmiryolçular üçün yeni salınmış şəhərcikdən, uşaq müəssisələrinin vəziyyətindən və əhaliyə göstəriləcək mədəni xidmət sahələrindən maraqlı məlumatlar qeyd olunur. Bu məlumatlar qəzetdə dərc olunmuş “Bostan-tərəvəz məhsulları tədarükündəki geriliyi tezliklə aradan qaldırmalı”, “Planı 150 faiz yerinə yetirmək uğrunda”, “Sovet Culfası tərəqqi yollarında”, “Dəmiryolçuların yeni şəhərciyində” adlı məqalələrdə özünə yer almışdır.

“Şərq qapısı” qəzetinin 28 yanvar 1959-cu il tarixli 9-cu nömrəsində yeni əmək qələbələri qazanmaq üçün yarış kampaniyalarına start verilməsi, əhalinin siyahıya alınması ilə bağlı statistika idarələri tərəfindən görülmüş tədbirlərin həyata keçirilməsi və sair materiallar qəzet səhifələrində özünə yer almışdır. Qəzetdə “Əhalinin siyahıya alınması qurtarmışdır”, “Yaz tarla işlərinə hazırlığı sürətləndirməli” başlıqlı məqalələrdə məhz həmin məsələlərdən danışılır.

Bir sözlə, Naxçıvanın ötən əsrin 40-50-ci illəri, iki onilliyin tarixi... Bir üzü faşizmin törətdiyi müharibə yaraları, fəlakətlər, dağıntılarla dolu, digər üzü bu yaraları sağaltmağa can atan xalqımızın fədakarlığı, qəhrəmanlığı və zəhmət dolu tarixləri...

Bu gün də həmin tarixlərin başqa bir üzünü yaşayır xalqımız. Bu dəfə erməni faşizminin xalqımıza gətirdiyi dəhşətləri, faciələri, vurduğu yaraları sağaltmaq, müzəffər Azərbaycan Ordusunun canı, qanı bahasına erməni işğalından azad olmuş torpaqlarımızı yenidən qurmaq, qalib Azərbaycan dövlətinin vətəndaşı kimi yenə də hünər və zəfərlər göstərmək naxçıvanlılar üçün əsl vətəndaşlıq missiyasının uğurla yerinə yetirilməsinə hesablanmış tarixlərdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 1 iyun tarixli Sərəncamı ilə 100 illik yubileyini dövlət səviyyəsində qeyd etdiyimiz, doğma və qədim diyarımızın birəsrlik mətbuat salnaməsi olan “Şərq qapısı” qəzetinin səhifələrində bu möhtəşəm tarixlər gələcək nəsillərimizə ərməğan ediləcək.

***Hörmətli “Şərq qapısı” qəzeti! Yüzillik yubileyin mübarək!***

**Nəzakət ƏSƏDOVA**
*“Xan Sarayı” Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksinin direktoru*

*Məqalə “Şərq qapısı” qəzetinin 100 illiyi münasibətilə keçirilən yaradıcılıq müsabiqəsinə təqdim edilir.*

# Doqquz ayın yekunları müzakirə olunub



***AMEA Naxçıvan Bölməsində 2021-ci ilin doqquzaylıq elmi və elmi-təşkilati fəaliyyətinin yekunları ilə bağlı hesabat yığıncağı olub.***

Bölmənin sədri, akademik İsmayıl Hacıyev iclası giriş sözü ilə açaraq cari ilin doqquz ayı ərzində yerinə yetirilən işlərdən, qazanılan elmi nəticələrdən bəhs edib.

AMEA Naxçıvan Bölməsi aparatının Elm və təhsil şöbəsinin müdiri, aqrar elmlər üzrə fəlsəfə doktoru, dosent Orxan Bağırov bölmənin cari ilin doqquz ayı ərzində göstərdiyi elmi və elmi-təşkilati fəaliyyəti ilə bağlı məruzə edib. O bildirib ki, AMEA Naxçıvan Bölməsi hesabat dövrü ərzində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin və Nazirlər Kabinetinin, Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin verdiyi tapşırıq və tövsiyələri layiqincə yerinə yetirməyə çalışıb. Elmi tədqiqatlar 2 akademik, 4 müxbir üzv, 4 elmlər doktoru, 50 fəlsəfə doktoru, 30 doktorant və dissertantın iştirakı ilə davam etdirilib.

Qeyd olunub ki, hesabat dövründə bölmənin Dissertasiya Şurasında 2 fəlsəfə doktorluğu dissertasiyasının müdafiəsi uğurla həyata keçirilib, 4 tədqiqatçının fəlsəfə doktorluğu dissertasiyası seminar müzakirəsindən keçərək müdafiəyə buraxılıb.

Vurğulanıb ki, cari ilin 3 rübü ərzində bölmə əməkdaşlarının 11 monoqrafiya, 5 kitab, 1 kitabça, 2 metodik vəsait, 286 elmi məqalə, 152 konfrans materialı, 3 tezis olmaqla, 460 elmi əsəri çap olunub, 3 buklet və 1 xəritə tərtib edilib. Əsərlərdən 3 monoqrafiya, 59 məqalə, 63 konfrans materialı, 2 tezis xaricdə nəşr olunub. Qeyd olunan dövr ərzində bölmə əməkdaşlarının 37 məqaləsi impakt faktorlu jurnallarda nəşr olunub, bunlardan 12-si Clarivate Analytics indekslidir. Tədqiqatçıların əsərlərinə 794 istinad qeydə alınıb, iki beynəlxalq səviyyəli qrant layihəsinin icrası uğurla davam etdirilib. “Elmi əsərlər” və “Axtarışlar” jurnallarının hər birinin 3 nömrəsi nəşr olunub.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Qars müqaviləsinin 100 illiyinin keçirilməsi haqqında” Sərəncamının icrası ilə bağlı “Qars müqaviləsi və Naxçıvan” mövzusunda elmi araşdırmalara başlanılıb, “Naxçıvan” ictimai-siyasi, ədəbi-bədii, elmi-publisistik jurnalının bir nömrəsinin Qars müqaviləsinin 100 illiyinə həsr edilməsi ilə əlaqədar elmi məqalələr hazırlanaraq sistemləşdirilib. Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidməti ilə birgə muxtar respublikanın Moskva və Qars müqavilələri ilə təsbit olunmuş ərazilərini əks etdirən xəritələr tərtib olunub.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 22 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş “Aşıq Ələsgərin 200 illik yubileyinə həsr olunmuş Tədbirlər Planı”na əsasən “Elmi əsərlər” jurnalının Aşıq Ələsgər yaradıcılığına həsr olunmuş xüsusi nömrəsi çapa hazırlanır. “Şərq qapısı” qəzetinin fəaliyyətinin 100 illiyi münasibətilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin imzaladığı Tədbirlər Planına uyğun olaraq hazırlanan kitab üçün məqalələr işlənməkdədir.

Bildirilib ki, hesabat dövründə bölmə əməkdaşlarından kimya üzrə fəlsəfə doktoru, dosent Günel Məmmədovanın bir ixtirası patent alıb, fizika-riyaziyyat üzrə fəlsəfə doktoru, dosent Məmməd Hüseynəliyevin bir sənaye nümunəsinə və aqrar elmlər doktoru, dosent Varis Quliyevin yaratdığı 7 yeni üzüm sortuna patent və müəlliflik şəhadətnamələri verilib.

Diqqətə çatdırılıb ki, ötən doqquz ay ərzində AMEA Naxçıvan Bölməsi ABŞ, Fransa, Polşa, Türkiyə, Rusiya, İran, Qazaxıstan, Gürcüstan və başqa ölkələrin 20-dən çox elm və təhsil mərkəzi ilə səmərəli elmi əməkdaşlıq edib, beynəlxalq əlaqələrin genişləndirilməsi istiqamətində tədbirlər həyata keçirilib.

Sonda bölmənin gələcək səmərəli fəaliyyəti üçün irəli sürülən təkliflər dəyərləndirilib.

***AMEA Naxçıvan Bölməsinin mətbuat xidməti***

Təbii sərvətlərimiz

# Naxçıvanın təbii sərvətləri böyük iqtisadi səmərəliliyə malikdir

***Naxçıvan Muxtar Respublikası yerüstü sərvətlərinin zənginliyi ilə yanaşı, mineral sərvətlərinin də müxtəlifliyinə və ehtiyatına malik olan çox zəngin diyardır. Muxtar respublikanın füsunkar təbiəti və cazibədar gözəlliyi əsrarəngiz dağ landşaftları və Araz çökəkliyi ilə səciyyələnir və çoxsaylı faydalı qazıntıları ilə seçilir. Mineral xammal ehtiyatlarının ümumi balansında qeyri-filiz faydalı qazıntılar və tikinti materialları mühüm yer tutur. Bu baxımdan Naxçıvan filiz, qeyri-filiz, inşaat materiallarının yataq və təzahürlərinə, müxtəlif tərkibli mineral suların çoxsaylı mənbələrinə və böyük ehtiyatlarına malikdir. Regionun təkcə mineral xammal bazası 41 müxtəlif faydalı qazıntı yataqlarının sənaye ehtiyatlarını özündə cəmləşdirir. Bunlardan Gümüşlü, Ağdərə, Başkənd, Gilançay, Ləkətağ polimetallik, Parağaçay, Qapıcıq molibden, Duzdağ, Sust, Nehrəm daşduz, Unus mis, molibden, Şərur və Şahbuz ərazisi mərmərləşmiş əhəngdaşı; Şahtaxtı, Qarabağlar travertin, Nehrəm, Gülüstan dolonit, Darıdağ antimonit, kinovar, realqar, Nəsirvaz molibden – qurğuşun ehtiyatlarına malikdir. Aparılan geoloji kəşfiyyat işləri Ordubad və Şahbuz rayonlarında qızıl yataqlarının və çoxsaylı təzahürlərinin olduğunu göstərmişdir.***

Tədqiqatlar nəticəsində muxtar respublikanın bir sıra bölgələrində müxtəlif növ qeyri-filiz faydalı qazıntı və tikinti-inşaat materialları yataqları aşkar edilmişdir. Buna görə də bölgədə odadavamlı məmulatların istehsalı üçün yararlı kaolinlər, kaolinləşmiş süxurlar, gillər çox geniş yayılmış və müəyyən dərəcədə turşuya davamlı kanalizasiya boruları, keramik məmulatlar, santexnika üçün fayans, incə keramika istehsalına yararlı olmaları öyrənilmişdir. Həmçinin soda üçün xammal kimi Nehrəm dolomit yatağında yerləşən dolomit, dolomitləşmiş əhəngdaşları və rəngli şüşə istehsalında istifadə olunan kvarsitləri misal gətirmək olar.





Ordubad və Şahbuz rayonlarında zəngin ehtiyatları olan seolitlər isə neft-kimya proseslərində katalizator kimi, sutəmizləyici qurğularda süzgəc kimi, rezin, plastik kütlə, kağız, aşqar sement istehsalı və mineral – polimer materialların istehsalında doldurucu kimi yararlıdır.

Muxtar respublikada ən böyük faydalı qazıntı yatağı kimi daşduzu göstərmək olar. Daşduz Naxçıvanın ən qiymətli mineral sərvətidir. Araşdırmalar göstərir ki, Naxçıvan daşduzu Qafqazı, Orta Asiyanı təmin etməklə yanaşı, karvanlarla Çinə, Yaponiyaya qədər aparılırmış.

Muxtar respublikada 3 daşduz yatağı mövcuddur: Duzdağ, Nehrəm və Şəkərabad-Qoşadizə. Naxçıvan şəhərinə yaxın olan Duzdağ 2 sahəyə ayrılır: Naxçıvan və Sust sahələri. Naxçıvan sahəsi Naxçıvan şəhərindən 12 kilometr şimal-qərbdə yerləşir. Yataq 6 laydan ibarətdir. Yatağın proqnoz ehtiyatları 1,3 milyard ton təşkil edir. Yatağın lap qədimdən işlənməsinə baxmayaraq, sənaye istismarına 1928-ci ildən başlanılmışdır. Sust sahəsi isə Naxçıvan şəhərindən 20 kilometr şimal-şərqdə, Sust kəndindən 3 kilometr şərqdə yerləşir. Sust sahəsinin daşduzu mikroskopik cəhətdən Naxçıvan sahəsinin daşduzundan heç nə ilə fərqlənmir.

Nehrəm daşduz yatağı Babək rayonunun Nehrəm kəndi ətrafında, Naxçıvan şəhərindən 10 kilometr cənub-şərqdə yerləşir. Yataq mütləq hündürlüyü 800-850 metr olan alçaqtəpəli düzənlik ərazidədir. Bu yataq 1946-cı ildə artezian quyusu qazılarkən aşkar edilmişdir. Burada daşduz laylarının qalınlığı cənub-şərqdən şimal-qərbə doğru 46,4 metrdən 90 metrədək artır. Nehrəm yatağının duzu kristallik olub, ağ, metalı-boz və tünd-boz rəngdədir.

Şəkərabad-Qoşadizə yatağı isə yeraltı qaz anbarlarının yaradılması üçün aparılan geoloji-kəşfiyyat işləri zamanı aşkar edilmişdir. Bu yataq Nehrəm duz yatağından 1-1,5 kilometr şimal-qərbdə yerləşir. Yataqda kəşf edilmiş duz layları Nehrəm duz yatağındakı layların davamı olduğundan bir sıra hallarda yatağın geoloji, fiziki-mexaniki, texnoloji və digər parametrləri Nehrəm duz yatağına uyğundur.

Xörək duzunun insan orqanizminə faydasını hamı bilir. Burada söhbət təkcə duzun dadından və keyfiyyətindən yox, onun orqanizmdə oynadığı roldan gedir. Çünki insanın qidasında xörək duzunu hər hansı bir başqa maddə ilə əvəz etmək mümkün deyil. Həmçinin natrium-xloridə kimya sənayesində də böyük ehtiyac duyulur. Soda və natrium-hidroksid kimya sənayesində istehsal olunan böyükhəcmli məhsullar sırasındadır. Sodanın 1 tonunun istehsalı üçün 1,55 ton, natrium-hidroksidin 1 tonunun alınmasına isə 1,6-1,9 ton natrium xlorid tələb olunur. Bundan əlavə, rəngli metallurgiyada xörək duzu polimetalik və sulfid filizlərinin, pirit yanığının xlorlaşdırma – yandırılmasında geniş istifadə edilir. Eyni zamanda xörək duzu toxuculuq sənayesində boyama prosesində, sabun sənayesində, keramikanın qlazurla örtülməsində, endotermik qarışıqların hazırlanmasında geniş istifadə olunur. Tibdə natrium-xlorid qədər miqdarca çox və müxtəlif sahələrdə tətbiq edilən ikinci bir preparat təsəvvür etmək çətindir. Natrium-xloridin 0,9 faizli məhlulu fizioloji məhlul adı ilə venaya köçürülür. Eyni zamanda mərkəzi və vegetativ sinir sisteminin fəaliyyətini, qanın və toxumanın kimyəvi tərkibini nizama salan dərman preparatlarının əsas komponentlərindən biri natrium-xloriddir. Beləliklə, sənayenin 1500-dən çox sahəsində xörək duzundan, yaxud onun əsasında alınan maddələrdən istifadə olunur.

Muxtar respublika ərazisində tikinti keramikası (kərpic) məqsədilə 4, aqloporit istehsalı üçün 2, bənd tikinti işləri üçün 1 gil yatağı öyrənilmişdir. Həmin gil yataqlarının ümumi balans ehtiyatları 12 min 64 kubmetr təşkil edir. Gillər çökmə dağ qrupuna aid olub, su ilə plastik kütlə əmələ gətirmək qabiliyyətinə malikdir. Bu kütlə quruduqdan sonra ona verilmiş formanı saxlayır. Közərdildikdən sonra isə daş kimi bərk olur. Məlum olduğu kimi, planetimizdə külli miqdarda gil yataqları vardır. Onlar tərkiblərinə, xassələrinə və rənglərinə görə fərqlənirlər. Gillərin rəngi onların tərkiblərinə görə dəyişir. Bütün gillər yeddi rəngdə olur: ağ, mavi, yaşıl, sarı, qırmızı, boz və qəhvəyi. Gil yeganə təbii materialdır ki, su ilə qarşılıqlı təsirdə olduqda plastik xassəsi olan kütlə əmələ gətirir. Bu da keramika məmulatlarına müxtəlif üsullarla forma vermək imkanı yaradır. Keramika məmulatları kobud və incə keramikaya bölünür. Kobud keramikaya, əsasən, kərpic, kaşı, odadavamlı kərpic, lövhə, dayaq, altlıq və sair aid edilir, onlar təbiətdə rast gəlinən geniş yayılmış asan əriyən gillərdən hazırlanır. İncə keramikaya isə farfor, fayans və mayolikdən düzəldilmiş məmulatlar aid edilir. Bunların texnologiyası bütün növ keramika məmulatlarının hazırlanmasından mürəkkəb və çox zəhmət tələb edəndir. Naxçıvan Muxtar Respublikası ərazisində Naxçıvan, Culfa rayonunun Yaycı, Ordubad rayonunun Dəstə, Babək rayonunun Çeşməbasar, Kültəpə və Kəngərli rayonunun Qabıllı kəndi ərazilərindəki gil yataqları öyrənilmişdir.

Maqnezium birləşmələrinin alınması üçün əsas xammallardan biri dəniz mənşəli çökmə süxur olan dolomitdir. Dolomitlər Naxçıvan Muxtar Respublikasında Araz çayının sol sahilində, cənub-şərqdən şimal-şərqə doğru izlənilən bir ərazini əhatə edir. Yataq Nehrəm kəndindən 10 kilometr cənubda, Dərəşam dəmiryol stansiyasından isə 2 kilometr şimalda yerləşir. Təbii dolomitdə əsas mineral dolomitlə yanaşı, kvars, kalsit, gips və başqa minerallar olur ki, onlar da süxura müxtəlif rəng çalarları verirlər.

Dolomitdən sement istehsalında çox işlədilən maqnezium-xlorid alınır və o, bir çox inşaat materiallarının əsasını təşkil edir. Dolomitdən alınan maqnezium-sulfat tibbi preparatın 20-25 faizli injeksion məhlulları, sakitləşdirici, qıcolmaya qarşı maddə kimi tətbiq olunur. Daxilə qəbul edildikdə işlədici və ödqovucu təsir göstərir. Dolomit süxurunun kompleks emalından həm xam şəkildə, həm də közərdildikdən sonra müxtəlif çeşidli məhsullar almaq olar. Xam dolomitdən üzlük lövhələr, bəzək materialları, közərdilmiş dolomitdən isə müxtəlif markalı sementlər, çox işlənən maqnezium duzları, metal maqnezium, gübrələr istehsal etmək mümkündür.

Bu gün dünyada həm bərpa olunan, həm də bərpa olunmayan təbii ehtiyatlar ölkələrin və xalqların əsas sərvətləri hesab edilir. Bu cür təbii resurslar ümumi daxili məhsulun artmasına, maliyyə və gəlirlərin çoxalmasına, yoxsulluğun azaldılmasına öz töhfəsini verir. Sevindirici haldır ki, bu gün muxtar respublikamızda təbii ehtiyatların iqtisadi qiymətləndirilməsi və ondan səmərəli istifadə olunması üçün dövlətin milli strategiyası var. Bu strategiyanın uğurla davam etdirilməsinin nəticəsidir ki, artıq muxtar respublikada daşduz, sement, gips, alçı, travertin, mineral su və digər yerli xammal əsasında istehsal olunan məhsullar daxili bazarın tələbatını ödəməklə yanaşı, ixraca da yönəldilir.

*İnanırıq ki, ulu öndər Heydər Əliyev ideyalarının uğurla davam etdirildiyi muxtar respublikamızda təbii sərvətlərdən layiqincə istifadə bundan sonra da diqqət mərkəzində saxlanılacaq, iqtisadi resursların insan kapitalına çevrilməsi öz nəticələrini verəcəkdir.*

**İsgəndər MEHDİYEV**
***Naxçıvan Dövlət Universitetinin Kimya kafedrasının baş müəllimi***

---

*"Torpaq, əgər uğrunda ölən varsa, Vətəndir!" Biz bu müqəddəs kəlmənin mahiyyətini 44 günlük şanlı Vətən müharibəsində ön cəbhədə vuruşan hərbçilərimizin, torpaqlarımızın azadlığı uğrunda qəhrəmancasına şəhid olan igid əsgərlərimizin timsalında daha yaxşı dərk etdik. II Qarabağ müharibəsində qazanılan ən şərəfli və qürurverici Zəfər tariximizin baş qəhrəmanlarıdır şəhidlər. Onların yaşadıqları ömür yolu gələcək nəsillər üçün böyük məktəbdir. Belə qəhrəmanlarımızdan biri də şəhidlik adlı ali zirvəni fəth edən, dövlət başçısının müvafiq sərəncamları ilə ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni, "Cəbrayılın azad olunmasına görə", "Vətən uğrunda" medalları ilə təltif edilən leytenant Elçin Əsgərovdur.*

Əfsanəyə dönən ömürlər

# Ən böyük istəyi işğal altındakı torpaqlarımızın azad edilməsi idi



Kəngərli rayonunun Qıvraq qəsəbəsində anadan olmuşdu bu cəsur Vətən oğlu. O, 2004-cü ildə Kəngərli rayon Qıvraq qəsəbə tam orta məktəbinin I sinfinə qəbul edilmişdi. Dayısı Çingiz Bəylərovun dediyinə görə, Elçin məktəbdə oxuduğu illərdə də öz bilik və bacarığı ilə yoldaşlarından fərqlənirdi. Dərslərindən həmişə əla qiymətlər alır, məktəbin ictimai işlərində fəal iştirak edirdi. Orta məktəb illərində o həm də vətənpərvərliyi ilə öz sinif yoldaşlarından seçilirdi. Vətənə olan hədsiz sevgisi onda gələcəyin zabiti olmaq arzusunu oyatmışdı. 2011-ci ildə imtahandan uğurla keçərək Naxçıvan şəhərindəki Heydər Əliyev adına Hərbi Liseyə, 2014-cü ildə həmin liseyi bitirərək Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olmuş, 2018-ci ildə həmin məktəbi kəşfiyyatçı ixtisası üzrə bitirərək Beyləqan rayonunda "N" hərbi hissədə xidmətə başlamışdı. 44 gün davam edən Vətən müharibəsində Füzuli, Cəbrayıl rayonlarının işğaldan azad olunmasında igidliklər göstərmişdi. Müsahibim deyir ki, Elçin sonuncu dəfə mənimlə oktyabrın 17-də danışanda dedi ki, dayı, hər şey yaxşı olacaq, hər gün kəndlərimizi işğaldan azad edə-edə ancaq irəli gedirik, tezliklə Qələbə ilə qayıdacağıq, ondan sonra danışa bilmədim. Doqquz gündən sonra oktyabrın 26-sı mənə xəbər verdilər ki, Elçin şəhid olub. Onda Vətən sevgisi o qədər yüksək idi ki, yaşı az olsa da, çətin və şərəfli vəzifənin öhdəsindən vicdan və ləyaqətlə gəldi, torpaqlarımızın işğaldan azad edilməsi uğrunda qəhrəmanlıqla döyüşdü, elə qəhrəman kimi də şəhid oldu. Elçinin itkisi ağırdır, biz onunla fəxr edirik.

Elçin Əsgərovun zabit yoldaşı taqım komandiri Cəsarət Quliyevlə söhbət zamanı dedi ki, Elçin haqqında nə qədər deyilsə, yenə də azdır. O, şanlı Vətən müharibəsinin cəsur döyüşçülərindən biri idi. Qədim torpaqlarımız Füzuli, Cəbrayıl istiqamətlərində, kəndlərin işğaldan azad edilməsində, bir sıra yüksəkliklərin alınmasında, düşmənin canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsində əsl igidlik və rəşadət göstərdi. O, komandirlərinin verdiyi əmrləri layiqincə yerinə yetirdi, öz əsgərləri ilə çiyin-çiyinə, ölümün gözünə dik baxaraq son damla qanına qədər düşmənlə mübarizə apardı. Döyüşlərdə bir neçə dəfə yaralanmasına baxmayaraq, torpaqlarımızı azad etmək üçün yenidən cəbhəyə qayıtdı. O, düşmənə ağır zərbələr endirib, son gülləsinə qədər döyüşərək oktyabrın 25-də yaralanmış yoldaşlarını döyüş meydanından çıxararkən qəhrəmancasına şəhid oldu. "Birinci mənim üçün Vətəndir", – deyib, ən çox sevdiyi torpağının da qəlbinə köçdü.

İndi Elçinin ruhu şaddır, çünki onun ən böyük arzusu yerinə yetib, torpaqlarımız işğaldan azad edilib, bu gün üçrəngli bayrağımız doğma Qarabağımızda dalğalanır. Elçin də digər qəhrəman şəhidlərimiz kimi daim qəlbimizdə, tariximizdə, sözümüzdə-söhbətimizdə yaşayacaq. Çünki şəhidlər ölmür, müqəddəs bir qayə, Vətən, millət yolunda canından keçənlər əbədiyyətə qovuşurlar.

Qeyd edim ki, 2019-cu il dekabr ayının 15-də ailə həyatı quran Elçin Əsgərov ölümündən 32 gün sonra ata olub. Noyabrın 27-də onun bir qız övladı dünyaya gəlib. Özünün də arzuladığı kimi qızına çox sevdiyi Zəhra adı verilib. Əminik ki, Zəhra böyüyəndə atası ilə qürur duyacaq, fəxr edəcək.

*Sonda isə Vətən uğrunda döyüşlərdə şəhid olan bütün qəhrəmanlarımızı, eləcə də Elçin Əsgərovu qürurla anır, onu böyüdüb boya-başa çatdıran Yalçın atanın, Fəxriyyə ananın qarşısında baş əyirəm. Vətən torpaqlarının azadlığı uğrunda canından keçən igidlərimizi, qəhrəman şəhidimiz Elçin Əsgərovu heç vaxt unutmayacağıq.*

**Güntac ŞAHMƏMMƏDLİ**

---

# Şəhid ailələri və qazilərə ödənişsiz tibbi xidmət göstərilib



***"Naxçıvan Muxtar Respublika Xəstəxanası" publik hüquqi şəxs şəhid ailələri, Vətən müharibəsi şəhidlərinin ailə üzvlərinə və qazilərimizə ödənişsiz tibbi xidmət aksiyasını davam etdirir.***

Ötən şənbə günü xəstəxananın 23 nəfərdən ibarət həkim briqadası Şərur Rayon Mərkəzi Xəstəxanasında humanitar tibbi aksiya keçirib. Aksiyada 29 şəhid ailəsinin 102 üzvü, Vətən müharibəsində iştirak edən və yaralanan qazilərimiz heç bir ödəniş etmədən, tibbi sığorta göndərişi tələb olunmadan 600-dən çox müayinə və müalicəyə cəlb edilib.

Müalicəyə cəlb olunanlara müvafiq dərman təyinatı yazılıb. Şərur Rayon Mərkəzi Xəstəxanası nəcib təşəbbüs göstərərək şəhid ailələrini ödənişsiz olaraq dərmanlarla təmin edib.

Şəhid ailələlərindən və qazilərdən 4-ü MRT müayinəsi və rentgenoloji və fizioterapevtik müayinə və müalicə üçün Naxçıvan Muxtar Respublika Xəstəxanasına dəvət olunub.

1 nəfər Çernobıl hadisələri zamanı sağlamlığını itirmiş şəxsə, 3 nəfər Birinci Qarabağ müharibəsi qazisinə də müvafiq tibbi yardım göstərilib, tibbi təyinat və məsləhətlər verilib.

Vətən müharibəsi qaziləri və şəhidlərin ailə üzvləri onlara göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

2021-ci il “Nizami Gəncəvi ili”dir

# Nizami Gəncəvi yaradıcılığında tarixi mövzular

*Nizami Gəncəvi haqqında söhbət düşərkən ümummilli lider Heydər Əliyevin sözlərini xatırlayıram:* ***“Azərbaycana, Azərbaycan xalqına təkcə Nizami Gəncəvi kimi dahi bir şəxsiyyət bağışladığına görə Gəncə torpağı, Gəncə xalqı, gəncəlilər əbədi minnətdarlığa layiqdirlər”.***



Azərbaycan zaman-zaman dünyaya söz sənəti xəzinəsini nadir incilərlə zənginləşdirən böyük sənətkarlar bəxş etmişdir. Bunların sırasında Nizami Gəncəvi yaradıcılığı möhtəşəmliyi, müdrikliyi və həyatiliyi ilə seçilir. Bəli, Nizami o şairlərdəndir ki, dərin fəlsəfi məzmunu yüksək poetik dillə, aydın, anlaşıqlı bir tərzdə öz oxucularına çatdıra bilmişdir. Elə bu səbəbdəndir ki, yazıldıqları dövrdən 800 ildən artıq bir vaxt keçməsinə baxmayaraq, onun əsərləri öz bədii dəyərini bu gün də saxlayır.

Azərbaycan şairi və filosofu Nizami Gəncəvi (1141-1209) Gəncə şəhərində sənətkar ailəsində doğulmuş, mükəmməl təhsil almış, yunan fəlsəfəsini və Şərq əsatirlərini dərindən öyrənmişdir.Yaradıcılığa lirik şair kimi başlayan şair böyük epik poemalarla bərabər altı qəsidə, yüz on altı qəzəl, otuz rübai yazmışdır. Bu qəzəl və qəsidələr incə lirizmi, dərin məna çalarları, yüksək bədii cəhətləri və sənətkarlıq xüsusiyyətləri ilə seçilir. Dünya ədəbiyyatında isə Nizami, əsasən, məsnəvi formasında yazdığı “Xəmsə” adlı beşliklə məşhurlaşmışdır. Buraya daxil olan ilk əsər “Sirlər xəzinəsi” adlanır. 37 yaşında bitirdiyi bu poemada humanist məzmunlu, mənalı və ibrətamiz əhvalatlar qələmə alınmışdır. Nizami əbədi dəyərləri – ədaləti, xeyirxahlığı, mərhəməti, zəhməti, sevgini tərənnüm edir və belə bir nəticəyə gəlir ki, həyatda, son nəticədə, haqq və ədalət prinsipləri qalib gəlir. Bütün bu humanist məzmunlu mənzum hekayələrin, əlbəttə, şahlara və hakim qüvvələrə müəyyən təsiri olmuş və beləliklə, Nizaminin Yaxın Şərq ölkələrində haradasa həmin müsbət prinsiplərin həyatda tətbiq edilməsində müəyyən rolu olmuşdur.



Nizaminin ikinci böyük əsəri “Xosrov və Şirin” poemasıdır. Bu əsəri bitirdiyi ildə Azərbaycanda və İranda hökmranlıq edən Atabəylər dövlətinin hökmdarı Qızıl Arslan şairin görüşünə gəlib şairlə xeyli söhbətdən sonra ayrılarkən ona “Həmdünya” adlı kənd bağışlayır. Şair də bundan ruhlanıb Şirvanşah Axsitandan aldığı sifarişlə “Leyli və Məcnun” poemasını yaradır.

Nizami Gəncəvinin şah əsəri, heç şübhəsiz ki, “İqbalnamə” və “Şərəfnamə” adlı iki hissədən ibarət olan “İsgəndərnamə” poemasıdır. Adından göründüyü kimi, əsərdə Makedoniyalı İsgəndərin əməllərindən və şərəfləndirilməsindən danışılır. “Şərəfnamə”də İsgəndərin apardığı müharibələrdən, “İqbalnamə”də isə ictimai-siyasi, fəlsəfi məsələlərdən bəhs olunur. İnsanlarda, xüsusilə dövlət başçılarında daim müsbət keyfiyyətlər görmək istəyən şair, heç şübhəsiz ki, İsgəndəri dünya tarixinin ən ideal şəxsiyyəti kimi yaratmaya bilməzdi. Nizaminin qəhrəmanı bütün tərəfləri ilə ideal bir qəhrəman obrazıdır. O, dünyanı yalnız bəşəriyyətin xoşbəxtliyi naminə fəth edir. Demək olar ki, öz hərbi qüdrəti ilə dünyanın böyük hökmdarlarına qalib gələn İsgəndər əsərdə həm də dünyanın ən müdrik bir mütəfəkkiri kimi təsvir edilir, eyni zamanda ədalətli bir hökmdar kimi idealizə olunur. İsgəndər Nizaminin arzuladığı adil hökmdar tipinə uyğun gələn ən münasib bir tarixi şəxsiyyət idi. Əsərdə çox maraqlı, dərinmənalı mübahisə, söhbət və mülahizələr var. Bu isə Nizami Gəncəvini dünyanın böyük mütəfəkkirləri sırasına daxil etməyə əsas verir. Əsərdən məlum olur ki, şair qədim yunan tarixi, fəlsəfəsi və elmi ilə mükəmməl tanış olmuşdur. Bunun özü o dövr üçün qeyri-adi hadisə idi.

Nizami Gəncə şəhərində mədrəsə təhsili almışdır, lakin o, dövrünün bir sıra elm sahələrinə (fəlsəfə, tibb, həndəsə, astronomiya və sair) dərindən bələd olmuşdur. Bunlarla yanaşı, dünya mədəniyyəti, yunan, ərəb, fars mədəniyyəti, Qafqaz xalqlarının tarixi ilə maraqlanmış, onların folklorunu öyrənmişdir. Nizami ana dilindən başqa ərəb və fars dillərini mükəmməl bilmiş və bir sıra dillərə yaxından bələd olmuşdur. O bunlara müstəqil mütaliə yolu ilə nail olmuşdur. Müstəqil mütaliə şairin dərin, hərtərəfli bilik qazanmasına imkan vermişdir. Söz dünyasının Günəşi olan Nizami bədii fikir tarixini insanın səadəti, mənəvi yüksəklik, mənalı ömür, azad və ədalətli cəmiyyət və sair kimi əhəmiyyətini heç vaxt itirməyən ölməz ideyalarla zənginləşdirmişdir. Nizami sənəti özünün humanist ruhu, xalqın arzu və istəklərinin aydın, təsirli ifadəsi ilə seçilir. Buna görədir ki, bu zəngin irs bütün dövrlərdə müasir səslənmiş, təqdir olunaraq izlənilmişdir. Şair “Sirlər xəzinəsi” poemasında belə bir fikir yürüdür ki, elmin, mədəniyyətin, ədəbiyyatın inkişafında dəmir bir qanunauyğunluq var. Nizami özündən əvvəlkilərlə müqayisədə şeiri elə bir əlçatmaz yüksəkliyə qaldırmışdır ki, sonradan gələn şairlər artıq ondan yüksəyə qalxmaq xülyasına düşməmiş, onun yolu ilə getməyi, ona bənzəməyi, onun şagirdi olmağı özləri üçün fəxarət saymışlar. Nizami mövzularında əsərlər yazmaq, ondan mənalar iqtibas etmək artıq bir ənənəyə çevrilmişdi. Şairin oxucunu həyata, insanlığa qarşı məhəbbət ruhunda tərbiyələndirən ölməz əsərləri bu gün də gözəllikləri, ülviyyəti dərk etməyə çağırır, ağlın qüdrətinə, haqqın, ictimai xeyirin qələbəsinə inam hissləri oyadır. Nizami zəmanəsinin hökmdarları şairi öz saraylarına gətirmək istəmiş, bu məqsədlə ona qiymətli hədiyyələr göndərmişlər. Lakin şair şahların saraya gəlmək təkliflərindən inadla boyun qaçırmış, ömrünün sonuna qədər Gəncədən kənara çıxmamış, heç kimin himayəsinə sığınmamışdır. Dahi şair öz poemalarında müasirlərinə olan münasibəti, doğma Vətəninə, xalqına məhəbbəti, gəncliyə qayğısı və sair haqqında da aydın məlumat verir. Nizaminin əsərləri, eyni zamanda onun saf, təmiz mənəviyyatı, xeyirxah təbiəti, bəşəri arzuları və pak niyyəti haqqında da aydın təsəvvür yaradır.

*Təsadüfi deyil ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev dahi şairin 110 illik yubileyi münasibətilə “2021-ci ilin Nizami Gəncəvi ili” elan edilməsi haqqında” 2021-ci il 5 yanvar tarixdə Sərəncam imzalamışdır. Dövlətimizin başçısı Nizami irsinə yüksək qiymət verərək demişdir:* ***“Nizami Gəncəvi ümumbəşəri mahiyyət daşıyan, ecazkar poetik qüvvəyə malik yaradıcılığı ilə Şərq bədii təfəkkürünü elmi-fəlsəfi fikirlərlə zənginləşdirmiş və şeiriyyəti görünməmiş yüksəkliklərə qaldırmışdır. Mütəfəkkir şairin məşhur “Xəmsə”si insanlığın mənəvi sərvətlər axtarışının zirvəsində dayanaraq, dünya ədəbiyyatının şah əsərləri sırasında layiqli yer tutur…”***

**Ulduz EYVAZOVA**
***Naxçıvan Qarnizonu tam orta məktəbinin tarix müəllimi***

## “Naxçıvan” Universitetində “Peşəkar bələdçi” təliminin I modulu keçirilmişdir



“Naxçıvan” Universitetində Turizm işinin təşkili və Turizm və otelçilik ixtisasları üzrə təhsil alan tələbələrə “Peşəkar bələdçi” təliminin I modulu keçirilib.

Tədbirdə “Naxçıvan” Universitetinin rektoru, dosent Nurlana Əliyeva çıxış edərək bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında” 2019-cu il 3 aprel tarixli Sərəncamına uyğun olaraq “Naxçıvan” Universitetinin Turizm işinin təşkili ixtisası Naxçıvan Muxtar Respublikasının Turizm Departamentinə hamiliyə verilib. Rektor bu gün turizmin ölkə iqtisadiyyatı üçün nə qədər vacib bir sahə olduğunu vurğulayaraq bu sahədə “Naxçıvan” Universitetində də ixtisaslı kadrlar hazırlandığını bildirib.

Naxçıvan Muxtar Respublikası Turizm Departamentinin direktoru Əkbər Novruzov tədbirdə çıxış edərək bildirib ki, Naxçıvan Muxtar Respublikasında turizmin inkişafına dair Dövlət proqramının qəbul olunması yüksəkkeyfiyyətli və rəqabətədavamlı turizm xidmətlərinin təmin edilməsinə, turizm potensialından tam istifadə olunmasına yeni imkanlar yaradıb.

Tədbirin ikinci hissəsində Turizm Departamentinin əməkdaşı Süleyman Rüstəmov tələbələrə ilkin səyahətlərin yaranması, Azərbaycanda turizmin qısa tarixi, ekskursiya zamanı məntiqi təfəkkür qanunlarından istifadə haqqında məlumat verib.

Sonda tələbələri maraqlandıran suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Turizm Departamentinin mətbuat xidməti***

## Miqrasiya proseslərinə nəzarət gücləndirilir

Naxçıvan Muxtar Respublikasında miqrasiya proseslərinə dövlət nəzarətinin gücləndirilməsi, qanunsuz miqrasiyanın qarşısının alınması məqsədilə Dövlət Miqrasiya Xidməti tərəfindən həyata keçirilən tədbirlər sentyabr ayında da davam etdirilmişdir. Xidmət tərəfindən muxtar respublika ərazisində qanunsuz yaşayan və qeydiyyatsız olan 31 əcnəbi aşkarlanaraq qanunvericiliyə uyğun olaraq barəsində müvafiq tədbirlər görülmüşdür.



Ötən ay Dövlət Miqrasiya Xidmətinə, ümumilikdə, 863 müraciət daxil olmuşdur. Həmin müraciətlərdən 398-i əcnəbilərə Azərbaycan Respublikasında müvəqqəti yaşamaq üçün icazənin verilməsi, əmək fəaliyyəti ilə məşğul olmaq üçün iş icazəsinin verilməsi, müvəqqətiolma müddətinin uzadılması, eləcə də vətəndaşlıq məsələləri ilə bağlı olmuşdur. Müraciətlərin hər biri ayrı-ayrılıqda qanunvericiliyin tələblərinə əsasən araşdırılmış, müvafiq qərarlar qəbul edilmişdir.

Hesabat dövründə olduğu yer üzrə qeydiyyatla bağlı 465 müraciət qeydə alınaraq icrası təmin olunmuş, həmin müraciətlərdən 170-i elektron xidmətlər portalı və elektron poçt üzərindən qəbul edilmişdir.

Dövlət Miqrasiya Xidməti tərəfindən fəaliyyət istiqamətlərinə uyğun olaraq maarifləndirmə tədbirləri aparılmışdır.

***Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin mətbuat xidməti***

## Fiziki tərbiyə müəllimləri ilə görüş

***Futbolun təbliği, kütləviliyinin artırılması, istedadlı gənclərin üzə çıxarılması məqsədilə “Araz-Naxçıvan” Peşəkar Futbol Klubunun nəzdində fəaliyyətə başlayacaq “Araz-Naxçıvan” futbol məktəbi layihəsi çərçivəsində daha bir tədbir keçirilib.***



Naxçıvan Muxtar Respublikası Gənclər və İdman, Təhsil nazirlikləri və Naxçıvan Futbol Federasiyasının təşkilatçılığı ilə Naxçıvan şəhərindəki 7 nömrəli tam orta məktəbdə keçirilən tədbirdə şəhər ümumtəhsil məktəblərində fiziki tərbiyə dərslərini tədris edən müəllimlər iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Təhsil Nazirliyinin əməkdaşı Elxan Babayev muxtar respublikamızda məktəblərin maddi-texniki bazasının və idman infrastrukturunun möhkəmləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər və idmançıların peşəkar səviyyədə hazırlanmasına göstərilən dövlət qayğısından danışıb. O, məktəblərdə şagirdlərin idmana olan marağının daha da artırılması, onların fiziki inkişafının təmin edilməsi məqsədilə görülən işlərdən də bəhs edib. Bildirib ki, son dövrlərdə muxtar respublikanın ümumtəhsil məktəblərində yeni klublar yaradılıb. Məktəblərdə digər idman növləri kimi, futbol üzrə yarışların da keçirilməsi şagirdlərin sağlam həyat tərzinə istiqamətləndirilməsinə, onların asudə vaxtının səmərəli təşkilinə, idmana olan marağının artırılmasına, ümumtəhsil məktəblərinin idman sahəsində sinifdənxaric və məktəbdənkənar fəaliyyətlərinin qiymətləndirilməsinə xidmət edir.

Naxçıvan Futbol Federasiyasının sədr müavini Sakit Rzayev bildirib ki, layihənin əsas məqsədi Naxçıvanın bütün şəhər və rayonlarındakı, o cümlədən kəndlərindəki istedadlı uşaqları üzə çıxarmaq, onları futbol məktəbinə cəlb etməkdir. 5-15 yaş arası uşaqların iştirak edəcəyi futbol məktəbində dərslər UEFA-nın futbol təhsili proqramı əsasında keçiləcəkdir. Qarşıdakı aylarda artıq layihəyə start veriləcək.

Çıxış edən müəllimlər yaradılan şəraitə görə minnətdarlıqlarını bildiriblər. Sonra suallar cavablandırılıb, elektron lövhədə slayd göstərilib.

## Təlim-Məşq İdman Kompleksində tədbir

Uzunoba Təlim-Məşq İdman Kompleksinin inzibati binasında Azərbaycan Həvəskar Futbol Federasiyasının prezidenti, Azərbaycan Region Liqasının vitse-prezidenti Rüfət Əmirovla görüş keçirilib. Görüşdə Naxçıvan Futbol Federasiyasının (NFF) sədr müavini Sakit Rzayev, federasiyanın qapıçılarla iş üzrə koordinatoru, “Araz-Naxçıvan” Peşəkar Futbol Klubunun qapıçı məşqçisi Amil Ağacanov iştirak ediblər.

Görüşdə Uzunoba Təlim-Məşq İdman Kompleksinin Naxçıvan və ümumilikdə, Azərbaycan futbolu üçün əhəmiyyəti, uşaq futbolunun inkişaf istiqamətləri, bölgədə futbolun kütləviliyi, bu sahədə həyata keçirilən təhsil və maarifləndirmə işləri, futzal və çimərlik futbolunun perspektivləri kimi mövzular müzakirə olunub. Eyni zamanda qonağa yenidənqurma işlərindən sonra istifadəyə verilən Ordubad Şəhər Stadionu və ümumilikdə, muxtar respublikamızda futbolun inkişafı istiqamətində atılan addımlar və yaradılan əlverişli maddi-texniki baza haqqında ətraflı məlumat verilib.

Görüşdə Azərbaycan Futbol Federasiyası Assosiasiyası ilə NFF arasında əməkdaşlıq əlaqələrinin uğurla davam və inkişaf etdirilməsi amili bölgənin futbol həyatı və gələcək potensialları baxımından yüksək qiymətləndirilib.

**Ceyhun MƏMMƏDOV**

### İtmişdir

Şərur rayonunun Şəhidməmməd kənd sakini İbrahimov Arif Kərim oğlunun adına olan JN-810$^{A}$ inventar nömrəli, 10200078 kodlu “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Şərur şəhəri, kapitan Seyidov küçəsində yerləşən Rzayev Hidayət İbrahim oğlu və Əliyev Yavər Əli oğluna aid qeyri-yaşayış sahəsinin 26 inventar nömrəli texniki pasport və MH-0003178 nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

***

Şərur rayonunun Zeyvə kənd sakini Axundova Bətulə Hüseyn qızının adına verilmiş JN-1283$^{A}$ inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Nəcəfov Novruz Mübariz oğlunun adına olan avtomobilin texniki pasportu itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Nail Əsgərov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 843